

**Məlum olduğu kimi müasir dövrdə yeniyetmə və gənclərin çoxsahəli tərbiyə sistemində kitabxanalar mühüm rol oynamalıdırlar. Hazırda respublikada demokratiyanın, müstəqilliyin təşəkkül tapdığı bir zamanda kitabxanalarımız gənc oxucuların ideya-mənəvi, vətənpərvərlik işinin səviyyəsini və məzmununu yüksəltməlidirlər.**

# Gənclərin kitabxana informasiya təminatının bəzi məsələləri

**Bu sahədə kitabxana işinin müxtəlif forma və vasitələrindən hərtərəfli və bacarıqla istifadə etmək lazım gəlir. Kitabxanalar gənclərimizin bütün qüvvələrini bu gün respublikamızın qarşısında duran mühüm vəzifələrin həllinə səfərbər edilməsində yaxından iştirak etməlidirlər. Bu sahədə kitabxanalarımızın, kitabxana işçilərinin əsas dayaq nöqtəsi, istifadə edəcəyi vasitə, bilavasitə kütləvi işlərlə sıx surətdə bağlıdır.**

Göstərmək lazımdır ki, gənc oxucuların mütaliə və digər zəruri problemlərinin həllində mühüm aparıcı yeri gənclərlə bağlı keçirilən kütləvi tədbirlər tutur. Kitabxanaların tipindən, növündən, məqsəd və vəzifəsindən, onun struktur quruluşundan, ştat vahidliyindən asılı olaraq bu işlə müxtəlif şöbə və bölmələr məşğul olurlar. Digər kütləvi kitabxanalarda da bu qayda ilə iş aparılır.

Belə bir istiqamətdə kütləvi tədbirlərin keçirilməsi, həm mövzuların məzmun çoxluğuna, həm başqa oxucularla bərabər gənc oxucuların tədbirlərdə fəal iştirak etmələrinə və kitabxanadan istifadənin çoxalmasına səbəb olur ki, bunu da müsbət hal kimi qiymətləndirmək lazımdır. Bu sahədə kitabxanalarda çoxsaylı işlər görülür. Bunun mühüm hissəsini kütləvi işlər, kütləvi tədbirlər tutur.

Çünki kitabxanalar nə qədər gözəl tərtibata malik olsa da, orada dövrün ictimai-siyasi, sosial-mədəni həyatına uyğun rəngarəng sərgilər təşkil edilsə də, gənc oxucuların ahəngdar inkişafına təsir edən şifahi təbliğat formalarına geniş yer verilsə də, sözsüz kitabxanalarda bir o qədər canlanma baş verəcək, kitabxana işçiləri öz işlərinə daha məsuliyyətlə yanaşacaq və nəticədə kitabxana işi bir o qədər yaxşılaşmış olacaq.

Ümumiyyətlə, kitabxana işi cəmiyyətin həyatında dinamik şəkildə inkişaf etməkdə olan orqanizmi xatırladır. Ona görə də orada gənc oxucularla bağlı hər cür iş aparmaq mümkündür. Bu-

rada başlıca qayə, başlıca vəzifə kitabxanaların vəzifələrinə uyğun hərəkət etmək tələb olunur. Professor A. Xələfov bu məsələni elmi şəkildə gözəl izah etmişdir: "Cəmiyyət inkişaf etdikcə, onun strukturunda ciddi dəyişikliklər baş verdikcə, cəmiyyət üzvlərinin mədəni səviyyəsi yüksəldikcə, oxucular arasında yüksək ixtisaslı, hərtərəfli inkişaf etmiş insanların sayı çoxaldıqca kütləvi kitabxanaların qarşısında daha mühüm vəzifələr meydana çıxırdı.

Bu vəzifələrin öhdəsindən gəlmək üçün kütləvi kitabxanaların təşkilatı quruluşunda və strukturunda böyük dəyişikliklər aparmaq, onların işinin məzmununu müasir dövrün tələblərinə uyğun qurmaq tələbi irəli sürülürdü" (1. s. 106). Bu ideya ilə bağlı ilk baxışda oxucularla aparılan mədəni kütləvi işlərin ünvanı da az deyildir.

Kitabxanalarımız dövrün, zamanın tələbinə, oxucuların, o cümlədən gənc oxucuların arzu və məqsədlərinə uyğun şəkildə, müxtəlif forma və üsullarda, müxtəlif məzmun və istiqamətlərdə elə maraqlı tədbirlər keçirməlidirlər ki, gənc oxucular bunlardan razı qalmaqla bərabər kitabxanalardan daha geniş şəkildə istifadə etmək imkanı əldə etmiş olsunlar.

Bunun üçün iki şərtə daha düzgün əməl etmək tələb olunur. Birincisi, kitabxana işçiləri gənc oxucular haqqında geniş, hərtərəfli elmi məlumata malik olmalıdırlar. İkincisi, biz bilirik ki, kitabxanalardan müxtəlif oxucu qrupları istifadə edirlər və onların hər birinə uyğun kütləvi tədbirlər keçirilməlidir.

Kitabxanalarda gənc oxucularla bağlı kütləvi tədbirlər keçirilərkən, mövzunun seçilməsinə daha çox diqqət yetirməli, gənc oxucuların bütün xüsusiyyətləri nəzərə alınmalıdır. Burada kitabxana işçiləri ilk növbədə gənc oxucuların yaş xüsusiyyətlərini nəzərə almalıdır.

Çünki gənc oxucularla iş apararkən bu yaş çərçivəsində hərəkət edilməlidir. Ona görə də kitabxana işçiləri müvafiq ədəbiyyatdan istifadə edib gənc oxucuların yaş həddini bilməli, öz işlərini buna uyğun şəkildə qurmalıdırlar. Bu məsələ müxtəlif ədəbiyyatda müxtəlif cür izah edilmişdir.

Qeyd etmək lazımdır ki, kütləvi kitabxanalar uşaq və gənc oxucuları yaxşı tanıdıqlarına görə onlarla əlaqə yaratmaqla, birgə iş aparmaqla, hər hansı bir məsləhət və tövsiyyələri onlara verməkdə o qədər də çətinlik çəkmirlər. Ona görə də gənclərin müxtəlif məsələ və problemləri ilə bağlı kitabxanada tədbirlər keçirərkən mövzu aktuallığına geniş yer verməlidirlər. Gənclərin maraqlarına daha çox diqqətli və həssas olmaq tələb olunur. Burada mövzunun seçilməsinə, bəzi hallarda gənclərlə razılaşdırılmasına üstünlük verilməlidir. Belə anlarda gənclər kitabxanaları özlərinin doğma evi hesab edir, sərbəst hərəkətləri ilə özlərinin fəallığını təmin etmiş olurlar.

Göstərmək lazımdır ki, kitabxanalarda xidmət işinin yaxşılaşdırılmasında kütləvi tədbirlərin rolu və yeri böyükdür. Kitabxana təcrübəsində və elmi ədəbiyyatda kitabxanalarda müxtəlif forma və üsullarda kütləvi tədbirlərin keçirilməsi barədə geniş məlumat vardır. Kitabxanalar mövzu və oxucu seçimi ilə əlaqədar olaraq bu tədbirlərdən istifadə etmiş və edirlər. Bunlar əsasən üç formada:

1) Əyani formada-buna daxildir: kitab sərgiləri, kitabxana plakatları və s.

2) Mətbu təşviqat və təbliğat a) dövri nəşrlər - b) kiçik formatlı nəşrlər

3) Şifahi təbliğat forması (Kitabxanalarda şifahi iş formaları).

Göstərmək lazımdır ki, bu təbliğat formasının üsulları hədsiz dərəcədə çoxdur. "Oxucularla iş" dərsliyində bunun aşağıdakı formada təsnifatı verilmişdir:

1)Tənqidi-analitik üsulu; a) müxtəlif növ oxucu konfransları; b) sual-cavab gecələri; s) ucadan oxular və s.;

2) Pozitiv-illüstrasiya üsulu: a) kitab axşamları; b) bədii qiraət; s) görüşlər və s.;

3) Tövsiyyə-informasiya üsulu: a) biblioqrafik icmallar; b) şifahi jurnallar; s) biblioqrafik axşamlar (bu il mən nə oxumuşam) və s.;

4) Ədəbiyyatın təbliğinin orta meyarlıq üsulu: a) Kitabxana işi haqqında oxucular konfransı; b) Kitabxanaya cəlb edilmiş oxucu fəallarının müşavirəsi (2. s. 139.)

Geniş tədqiqat mövzusu olan bu kütləvi işlərin ayrı-ayrı forma və üsulları yuxarıda qeyd etdiyimiz kimi, kitabxanaların imkanlarından asılı olaraq müxtəlif səviyyələrdə keçirilmiş və keçirilməkdədir. Kitabxanalarımız bu çoxsaylı kütləvi işlərin forma və üsullarından geniş şəkildə istifadə edərək gənc oxucularla da aktual və müxtəlif mövzularda tədbirlər keçirmişlər ki, bu da oxucu-kitabxana münasibətlərinin daha da yaxşılaşdırılmasına səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, kitabxanalarda keçirilən kütləvi tədbirlərin hər birinin özünəməxsus xüsusiyyətləri var və hazırlanma, keçirilmə üsulları biri digərindən ciddi şəkildə fərqlənir. İndi bunlardan bir neçəsini nəzərdən keçirək:

1. Oxucu konfransları: Bu elmi-nəzəri və təcrübi əhəmiyyətli mövzulara, ictimai- siyasi motivli məsələlərə, tərbiyəvi xarakterli işlərə və ya bir kitabın geniş müzakirəsinə, bir şəxsin fəaliyyətinə və s. həsr oluna bilər. Burada başlıca qayə, başlıca məqsəd tədbirdə oxucuların kollektiv şəkildə iştirakının təmin edilməsidir. Oxucu konfransları ədəbiyyatın təbliğində mühüm rol oynayan tədbirlərdən biri kimi səciyyələndirilir.

Oxucu konfransının dəyəri təkcə iştirakçıların hər hansı əsərlə tanış olmasında deyil, onların əsərdə toxunulan məsələlər barədə öz təklif və mülahizələrini söyləmələri, başqalarının çıxışlarını dinləmələri və bu çıxışlara tənqidi yanaşmalarıdır.

Oxucu konfransının canlı, maraqlı keçməsi üçün ilk növbədə mövzunun və ya hər hansı bir əsərin seçilməsinə daha çox diqqətin yetirilməsidir. Bu məsələnin elmi təcrübi həllini A. Qasımov özünün "Sözlə tərbiyə etməli" adlı vəsaitində gözəl izah edə bilmişdir.

O, yazır: "...Təcrübəmizdə müəyyən etmişik ki, müzakirə üçün əsər, oxucu ictimaiyyətinin, elmi və ya bədii ədəbiyyata aid hər hansı bir əsərə maraq göstərməsi xidmət şəbəkəsində həmin əsərin tez-tez soruşulması, səriştəli kitabxanaçının isə bu vəziyyəti nəzərə alıb oxucularla işini məhz bu səmtə, yəni başqa sözlə desək oxucuların marağına səbəb olmuş bu əsərə yönəltməsi, kitab verilişi zamanı, oxucularla aparılan fərdi söhbətlər zamanı seçilmiş olur"(4, s. 64).

Göstərmək lazımdır ki, kitabxanalarda keçirilən tədbirlərin içərisində ən mürəkkəbi və çətini oxucu konfransıdır. Bu tədbirə təxminən üç aya yaxın vaxt sərf edilir. Hazırlıq işi bir neçə dəfə müzakirə edilir, yeni rəylər, tövsiyyələr nəzərə alınır, proqram tərtib edilir, keçirilmə vaxtı reklam edilir.

Keçirilmə vaxtı mövzuya uyğun əyani vəsaitlərdən geniş şəkildə istifadə edilir. Konfransın gedişi vaxtı verilən xahişlər, tövsiyyələr nəzərə alınır və geniş protokolu tərtib edilir və s. Göründüyü kimi gənclərlə bağlı keçirilmiş oxucu konfransında kitabxanalarda nə qədər canlanma və fəallıq hiss olunur, ədəbiyyatın oxucular arasında geniş təbliğinə zəmin yaranmış olur və s.

2. Ədəbi-bədii gecələr. Bu tədbir üsulu iki, bir-biri ilə uyğunlaşan və böyük bir məqsədin həyata keçirilməsini nəzərdə tutur. İki hissədən ibarət olan bu tədbir üsulunda birinci rəsmi hissə, ikinci bədii hissə adlanır.

Tədbirin birinci hissəsində mövzu ilə bağlı məruzə və çıxışlar dinlənilir, ikinci hissədə isə ona uyğun musiqili və ya bədii motivli məsələlər həll edilir. Məsələn: Nizami Gəncəviyə, Nəsimiyə, M.Ə.Sabirə, C.Cabbarlıya, İlyas Əfəndiyevə, S. Vurğuna və s. həsr edilmiş ədəbi-bədii gecədə, bütün nəzərdə tutulan məsələlər həm rəsmi hissədə, həm də bədii hissədə həll edilir, oxucularda məsələ ilə bağlı tam ümumi fikir aydınlığı yaradılır. Bu geniş həcmli tədbirdə gənc oxucular geniş bilik əldə etmiş olurlar.

Gənc oxucuların tədbirin keçirilməsində iştirakı təmin edilsə, iş bir o qədər orijinal və canlı keçmiş olar. "Oxucu konfransları kimi ədəbi-bədii məclislərin keçirilməsi də xüsusi hazırlıq tələb edir. Ədəbi-bədii məclisə hazırlıq dövründə kitabxanada aparılan bütün işlər ədəbi məclisin keçirilməsinə istiqamətləndirilməli, ədəbi məclisdə oxucuların fəal iştirakı təmin edilməlidir (3, s. 313).

Bu tədbir üsulunda da əyani təbliğat və təşviqat işinə ciddi fikir verilməlidir. Belə tədbirlərin məzmunu, forması və üsulu imkan verir ki, kitabxanalar yaradıcı və fəal gənclərin qüvvəsindən istifadə etsinlər.

Gənc oxucuların tərbiyəsi ilə əlaqədar kitab-

xanaların vaxtaşırı istifadə etdikləri kütləvi iş formalarından biri də disputdur. Disput-mürəkkəb yaradıcı iş formasıdır. Disputun təsir qüvvəsi ona necə hazırlaşmaqdan asılıdır. Bu tədbirdə mübahisə vərdişləri aşılanır, oxucuların fəallığı təmin edilir. Çünki "....disputun əsasını diskussiya-mübahisə təşkil edir. Disputda eyni məsələ üzrə müxtəlif baxışların, fikirlərin toqquşması müşahidə edilir. Müzakirə edilən mövzu ətrafında başqa iştirakçıların baxışları və mülahizələrini dinlədikcə, gənc oxucu öz təsəvvürlərini, fikirlərini dəqiqləşdirir, düzəldir".

Göründüyü kimi kitabxanalar disput tədbir üsulundan istifadə etməklə, sanki gənc oxucular üçün yaradıcılıq laboratoriyası açmış olurlar ki, bu da gənc oxucuların hərtərəfli inkişafına müsbət təsir etmiş olur.

Ümumiyyətlə, kitabxanalarda gənclərlə bağlı keçirilən kütləvi işlərin hər birinin geniş təhlilini verməyə o qədər də ehtiyac yoxdur. Lakin burada bir məsələ aydındır: Hər bir tədbirdən istifadə edib, gənc oxucuların mütaliə və digər problemlərini həll etmək üçün kitabxanalar düşünülmüş tədbirlərə, məqsədyönlü işlərə daha cox yer verməlidirlər.

Göstərmək lazımdır ki, kitabxanalarda keçirilən kütləvi tədbirlərdə kitabxanaların sosial funksiyasına aid bir neçə amillər, cəhətlər yerinə yetirilir. Ona görə də fəaliyyətdə olan elə bir kitabxananı göstərmək qeyri-mümkündür ki, onlar il ərzində onlarca müxtəlif mövzulara aid kütləvi tədbirlər keçirməmiş olsunlar. Burada gənclərin mütaliə, təhsil və tərbiyə məsələləri ilə bağlı onlarca kütləvi tədbirlərin keçirilməsinə aid faktlarla, materiallarla tez-tez rastlaşmaq mümkündür. Bununla əlaqədar Səbayel rayonunda yerləşən bir neçə kütləvi kitabxananın iş təcrübəsini nəzərdən keçirək:

Qeyd etmək lazımdır ki, kitabxana öz işini üç istiqamətdə: birincisi-gənc oxuculara ədəbiyyatla xidmət göstərməkdə: ikincisi, respublikada gənclərə kitabxana xidmətinin yaxşılaşdırılmasına köməklik göstərməkdə və üçüncüsü, kütləvi tədbirlər vasitəsilə gənclər arasında ideya tərbiyə işinin aparılmasında qurulmuşdur.

**Etiraf etmək lazımdır ki, bu sahələrdə kitabxananın zəngin təcrübəsi vardır. Göstərmək lazımdır ki, kitabxanadan istifadə edən gənc oxucuların sosial tərkibini bilmədən, onlar arasında aparılan tərbiyə işinin meyarlığını müəyyən etmək qeyri-mümkündür.**

● **İradə ƏLİYEVA,**
***Azərbaycan Respublikası Dövlət Elmi-tibbi kitabxanasının baş kitabxanaçısı***

## Ədəbiyyat

1. Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri. B. 2006.
2. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Dərslik, II h. B. 2003.
3. "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktiki jurnalı. 2011, №1.
4. Əhmədov E.Y. Qlobal İnformasiya Məkanı və müasir kitabxanaşünaslıqda mütaliənin yeri. "Mədəni-maarif" jurnalı. 2009, №4.

**Резюме**

В статье рассмативаются значение библиотек в информационном обеспечении молодежи. В месте с тем здесь показына формы библиотечного обслуживания в этом направлении. Статья играет важную роль формировании и развитии жизненной позиции молодежи.

**Summary**

The Significant issues of informational provision of youth have been interpreted in this article. Additionally, the patterns of the library service to youth have been presented here. The contribution of reading to the shaping of youths way of thinwing is strongly and unequivocally mentioned.